# MƏNİM TANRIM GÖZƏLLİKDİR, SEVGİDİR

***Dünya, aləm başdan-başa gözəlliklərlə doludur. Yalnız ətrafa nəzər salmaq, təbiətdəki gözəllikləri görmək və duymaq lazımdır. H.Cavid dünyada, təbiətdə və insanda gözəlliyi görür, duyur və ondan zövq alırdı. Cavid hər şeydə gözəllik və sevgi axtarırdı. Çünki Cavid gözəllik və sevgiyə tapınırdı.İnsan adətən dünyaya gələndən Allahı axtarır, onu görmək, ona qovuşmaq istəyi ilə yaşayır.***

Bu hisslər Caviddə də çox güclüdür. Cavidin gözəllik və sevgiyə tapınması bəlkə də, Tanrı axtarışlarından başlayırdı?

"Cavidi başa düşmək üçün" gözəlliyi axtara-axtara və gözəlliyə salınan işığın izi ilə axıra qədər başa düşmək olar. Onun bütün yaradıcılığı insanda, təbiətdə və dünyada gözəllik axtarışlarıdır. Bir şair kimi Cavid bütün şerlərində gözəlliyin (əlbəttə, geniş mənada gözəlliyin) pozulan qaydalarını nizama salmaqla məşğuldur" (2,s.105).



Eşq və gözəllik, ümumiyyətlə, klassik romantizmin əsas kredosu və estetik devizi idi. XVI əsrdə eşqi tərənnüm edən böyük məhəbbət şairimiz M.Füzuli yazırdı:

*Məndən Füzuli istəmə əşarü mədhü zəmm*
*Mən aşiqəm, həmişə sözüm aşiqanədir.*

Eşq və gözəllik. Eşq və insan. Eşq və həyat sevgisi...

Orta əsrlər fəlsəfəsində eşqin insan mənəviyyatındakı rolu barədə dərin və geniş biliklər var. İbn Sina "Eşqin mahiyyəti haqqında risaləsində yazır ki, "Sevgiyə Xeyir və Gözəllik ilahəsi kimi baxılır və o, xeyirin qaynağı sayılır. İnsandakı bu keyfiyyət onu haqq yoluna qovuşdurur" (7,s.107).

Dünyaya sevgi və məhəbbətin gözü ilə baxan Cavid öz sənət kredosunu bu sözlərlə ortaya qoyurdu: "Mənim tanrım gözəllikdir, sevgidir". O, gözəlliyi duyan insan qəlbinin eşqsiz olmadığına, eşqi insanın iç dünyasını paklaşdıran, kamilləşdirən bir güc, qüvvə olduğuna inanırdı. Eşq gözəlliyə olan sevgidən yaranır.

Eşq Allahın insanlara təqdiridir, vergisidir. Gözəllik isə Allahın insana olan sevgisidir. Gözəli Allah sevərək yaratdığı üçün bu qədər gözəl yaratmışdır. Demək, dünyadakı, kainatdakı, təbiətdəki bütün gözəlliklər eşqlə yaranmış təbii lövhələrdir və bu gözəlliklər insanlar üçündür.

Fəlsəfi lirikanın banisi Nəsimi eşqi ilahi mənbəyə bağlayır, çünki Nəsimiyə görə Allah yaratdığı gözəlin surətini hər şeydən gözəl yaratmışdır. O qədər gözəl yaratmışdır ki, sanki "çöhrəsində yazmışdır: Mənəm həqiqət" (3,s.164).

Kim ki gözələ məna gözü ilə baxarsa, ondakı, onun çöhrəsindəki Allaha məxsus izləri görə bilər.

*Mənə gözü ilə hər kim ki baxdı,*
*Təsdiq edərək söylədi, vallah bu xudadır* (3,s.33).

Nəsimi sufi-hürufi şair idi. Sufilərdə isə Allaha yetmək, mütləq eşqə qovuşmaq, Allah eşqinə cəzb olmaqdır. Gözələ məna gözü ilə baxan Caviddə də sevgi və gözəllik Allah səviyyəsindədir. Gözəlliyə aşiq insanın, sevən insanın yolu özünüdərkdən keçir, sevən insan kamilləşir, Allahlaşır, çünki Tanrı səviyyəsinədək yüksəlir. Sevən insan bütün gözəllikləri öz qəlbində, ruhunda gəzdirir. Gözəllik dünyanın şah əsəridir. Onu seyr etmək azdır, onu sevmək, ona tapınmaq lazımdır. Eşq və gözəllik vəhdətdə daha kamildir, daha gözəldir. Gözəllik həqiqətdir.

Professor Y.Qarayev Caviddə meydana çıxan Füzuli ənənəsini səciyyələndirərək yazır: "Dahi Füzulidən sonra Füzuliyə bənzərliyi ilə yox, ondan fərqi ilə heyrətləndirən ilk böyük romantik-

lər bu dövrdə yetişir" (2,s.104).

XX əsrin iki onilliyində fəlsəfi lirikada öz sözünü deyən böyük romantiklərdən biri də H. Cavid idi ki, "Füzuli ənənəsi Caviddə öz təkrarsız, bənzərsiz bədii ədası və fəlsəfi mənası ilə meydana çıxır" (2,s.104).

Bir şərqli kimi Caviddə gözəllik meyarı çox maraqlıdır. Cavid üçün gözəllik nədir və ya onunçün gözəlliyin meyarı nə ilə ölçülür? Gözəl deyəndə Cavid hansı gözəlliyi, insanın estetik görünüşünü nəzərdə tuturdu, yoxsa mənəvi gözəlliyi? Bütün bu sualların cavabı H. Cavidin yaradıcılığında öz əksini tapır. Sanki bu sual Cavidə verilmiş kimi bir cavab var;

*"Mən gözəllərdə gözəl ruh araram*
*Ruhu düşkünləri çirkin sayaram"*

Cavid gözəl o insanı sayırdı ki, onun daxili də zahiri qədər gözəl olsun, "zahirlə batin" bir-birini tamamlasın, "camalı ilə kamalı" eyniyyət təşkil etsin. Əsl gözəllik ruh gözəlliyidir, ruhu çirkinlik hüsn gözəlliyini də heçə endirir. "Böyük amala, yüksək estetik ideala malik sənətkarın həyatdan, insanlardan umduğu ruhu ilə göz oxşayan gözəllikdir" (4,s.136).

Cavid gözəlliyin batininə enirdi, onun daxili mahiyyəti daha önəmli idi. Cavid mütləq gözəllik, ideal gözəllik axtarırdı. Onun Tanrı səviyyəsində gördüyü gözəllik məhz bu idi. Çünki Cavid ən bakirə idealları təbliğ edirdi və o, gözəllik və sevgi ilə dünyanın xilasına inanırdı. Gözəllik və sevginin cəmiyyəti tənzimləyici qüvvə ola biləcəyinə inanırdı. "İnsanın mənəvi dünyası onun fərdi dünyasıdır" (5, s.339).

Hər kəsin, hər bir fərdin mənəvi dünyasının pak və təmiz olması, sevgi ilə vurması (sevgi ilə vurması insanlıq üçün vurması deməkdir, məncə) cəmiyyətin qazancıdır. Cəmiyyətdəki fərdilərin xeyir əməllər və işıqlı arzulara xidməti deməkdir. "O gözəllik ki, insana xidmət etmir", şairin nəzərincə, boş bir cəfəngiyyatdır. Cavid əfəndi həmişə deyirmiş ki: "O gözəllik ki, insanlara xidmət etmir, mən ona vurula bilmərəm" (9).

Eşq deyəndə gözəllik, gözəllik deyəndə eşq yada düşür. Gözəllik qarşısında insan cəzb olunur. Cavidi cəmiyyətdə gedən proseslər düşündürür, narahat edir və o bunun həlli yollarını axtarırdı. İnsanlar arasında mənəvi körpü salmaq üçün onları sevgi və məhəbbətə çağırırdı, gözəlliklərdən ilham almağa çağırırdı. Bu Cavidin inadla təbliğ etdiyi Gözəllik və Sevgi ideyası idi. Gözəllik sevgi yaradır. Sevgi insanı yenidən yaradır, onu kamilləşdirir. Sevən insan mərhəmətlidir. İnsanı sevən Allahı da sevər. Allahı sevən insan mənəvi cəhətdən zəngin olar. Gözəllik səbəbdirsə, sevgi nəticədir. Sevginin nəticəsi isə insanlıqdır, həqiqətdir, yüksəklikdir. Çünki gözəllik varlığın keyfiyyətcə təzahürü hadisəsidir. Gözəllik hüsn obyektidir, eşq isə hüsnə və gözəlliyə olan münasibətdir. Cavid insanları kamil görmək istəyirdi, onun inadla təbliğ etdiyi məhəbbət ideyası kamilliyin açarıdır. Cavid insanları məsud və xoşbəxt görmək istəyirdi; xoşbəxtlik və səadətin açarı məhəbbətdir. Cavid bəşəri şair idi, insanları məhəbbətə səsləyirdi, o, məhəbbət ki, bütün bəşəri hisslərin fövqündə dayanır. Eşqin bəşəriliyi, eşqin qurucu, təşviredici olması haqqında Azərbaycanın böyük alimi Qətran Təbrizi hələ XI əsrdə o dövr üçün mütərəqqi hadisə olan sufizmin eşq anlayışını belə şərh edirdi: "Eşq fərdi deyil, ümumbəşəri eşqdir, inhisari deyil-kütləvidir. Təxribedici deyil, qurucudur, həsəd aparan deyil, təşviqedicidir. Rəngindən, dilindən, əqidəsindən asılı olmayaraq bütün insan övladının bir-birinə məhəbbətidir. Bu məhəbbət aləmində türk, tacik eynidir. Rumlu zənci bərabərdir, kafər müsəlman məsələsi yoxdur. Burada əsas məsələ ancaq insanın insana, dünyaya və bütün varlığa saf və təmiz məhəbbətidir" (8).

Deməli, eşq bəşəridir, eşq qurucudur, eşq tərbiyələndiricidir. Məsələn, Xosrov yalnız Şirinin eşqi sayəsində mənəvi təkamül yolu keçərək dəyişir, inkişaf edir. İnsanın təkamülü və kamilləşməsində məhəbbətin gücü danılmazdır.

Höte "sevgi müntəxabatını bütün kitabların müntəxabatı" adlandırırdısa, M.Girişveld sevginin qüdrətinə inam və qiymət vermək baxımından bir az da irəli gedərək yazırdı: "Məhəbbətin nəfəsi dünya xaosunu nizama salır, disharmoniyanı harmoniyaya çevirir". H. Cavidin bütün yaratdıqları sevgi müntəxabatı idi və o, məhəbbə-



tin nəfəsi və gözəlliyin gücü ilə dünya xaosunun nizama salınacağına inanırdı. O, insanın kamilləşməsi üçün eşq və gözəllik yolundan saflaşaraq kamilliyə doğru yol aldığına inanırdı. O, gözəllik deyəndə uca eşqi, eşq, sevgi deyəndə isə gözəlliyi düşünürdü. Ümumiyyətlə, ruhu gözəl olanları gözəl sayan, "batinlə zahiri gözəl olan gözəllik və məhəbbət H. Cavid yaradıcılığında iri, böyük hərflərlə yazılmış sənət kredosu idi. Gözəllik və sevgi, eşq və inam. Dünyanı qurtaracaq, nizama sala biləcək güc. İnsanı insan edən, kamilləşdirən qüvvə. Sevmək yüksəlməkdir, sevən insan dahidir (Losev)". Həm də dünyanın pozulmuş qaydalarını səhmana sala biləcək qüvvənin "Gözəllik və Sevgi" olduğuna inanan Cavid, yüksək ideyalarla yaşayan və yaradan sənətkar idi və o, məhəbbətin xilasedici qüvvə olduğuna inanırdı. Yetər ki, insanlar "dünyadakı, kainatdakı, təbiətdəki və insandakı gözəlliyi duysunlar, gözəlliklərdən zövq alaraq böyük eşqlə sevməyi bacarsınlar, yəni kamlləşsinlər, bu sevgidən kənar qalmasınlar, gözəllik və sevgini uca tutsunlar. Bu ucalığa çatmaq üçün saflaşa-saflaşa, odlar, alovlar ayaqlaya-ayaqlaya, mənəvi cəhətdən durula-durula sevərək kamilləşsinlər. Gözəllik və sevgini həqiqət kimi dərk etsinlər. Dünyada ən saf şey sudursa, o da torpağın altından, daşların dibindən saflaşa-saflaşa, durula-durula üzə çıxır.

Cavid insanları sevgi və gözəllik işığında saflaşmağa, kamilləşməyə, həqiqətə çağırırdı. Başdan-başa eybəcərliklərlə dolu olan dünyada saflaşmaq, kamilləşmək üçün bir tutanağı, tapınacağı bir şey varsa, o da Gözəllik və gözəlliklərdən doğan eşq və məhəbbətdir. Cavidin arzusu da bu deyilmi? - "Bütün kainatı eşq olan bir cahan" arzusunda idi Cavid.

Məhəbbət H. Cavid yaradıcılığı üçün "səciyyəvi və konsepsiya təşkil edən bir ideyadır" (6,s.223) və bu ideya onun bir çox əsərlərində olduğu kimi "Topal Teymur" əsərində də şairin dili ilə söylənilir: "Şair səmimi və çoşğun bir ahənglə": Məhəbbət!Məhəbbət!...əvət bütün bəşəriyyəti xilas edəcək məhəbbətdir" (1,s.65).

Bu sözlərin bir şairin dilindən, söylənməsi də təsadüfi deyil. Şairin dilindən söylənənlər H. Cavidin fəlsəfi görüşləridir. Şairə görə gözəlliksiz və sevgisiz həyat yoxdur. "Sevgi üfüq kimidir, hər an səni əl eyləyib çağırır, sən yaxınlaşdıqca o uzaqlaşır". Və beləliklə, sevgi və gözəllik Caviddə ona görə Tanrı səviyyəsindədir qənaətinə gəlirsən ki, sevgiyə, eşqə, həqiqətə çatmaq üçün ucalmalı, yüksəlməlisən. Yüksəldikcə kamilləşirsən, kamilləşdikcə sevgini dərk edirsən, yəni özünü dərk edirsən. Sevgi insanın özünü dərk etməsinə kömək edirsə, gözəllik oxu üfüqdən əl edən sevgiyə sən çatdın dedikcə uzaqlaşan üfüqə" - sevgiyə ucalığa, ülviyyətə-həqiqətə çatmaq üçün göstərilən cilvədir.

Cavid bunun üçün insanları sevgiyə və məhəbbətə səsləyirdi; "Məni hər kim sevirsə, yüksəlsin!" Varlığın mahiyyətini gözəllik və eşqdən keçən məhəbbətdə görən Cavid" məhəbbət dünyanı xilas edəcək" ideyasını təbliğ edirdi.

Aparılan müqayisələrdən bu qənaətə gəlmək olur ki, H. Cavid yaradıcılığında eşq və məhəbbət ideyası ehkamçılıqdan və mistizmdən uzaqdır. Caviddə məhəbbət bəşəridir. Cavid üçün hər şey bəşəriləşir, məhəbbət, sevgi, eşq bəşəriləşərək insanın ruhuna hopur, "fikrinə, sözünə, əməlinə" dönür.

**Lütviyyə ƏSGƏRZADƏ,**
*filologiya elmləri namizədi.*
AMEA Naxçıvan Bölməsi

**Ədəbiyyat**

1. "Azərbaycan gəncləri", 28 dekabr. 1978
2. H. Cavid. Topal Teymur. Atilla -2001
3. H.Ənvəroğlu. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri. Bakı., 2004.
4. XX əsr Azərbaycan ədəbiyyatı.Bakı., Elm, 1985
5. Məmməd Cəfər. "Hüseyn Cavid". Bakı.1966
6. Nəsimi. Fars divanı. Bakı.1972
7. Şeyh Qalib. Hüsn-ü Aşk. İstanbul - 1968
8. İ.Vəliyev. Ədəbiyyatda insan konsepsiyası. Bakı., 1999
9. "Şərq qapısı", 13 oktyabr 2006